**“Rayon icra Hakimiyyətində Apelyasiya Şurasının yaradılması barədə” Hacıqabul rayon İcra Hakimiyyəti başçısının 08 fevral 2016-cı il tarixli 19 nömrəli Sərəncamına qismən dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 03 fevral 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyətləri orqanlarında Apelyasiya Şuralarının yaradılması nəzərdə tutulmuş və “Yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuraları (bundan sonra - Apelyasiya Şurası) haqqında nümunəvi Əsasnamə” təsdiq edilmişdir. Həmin Əsasnaməyə əsasən sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə yerli icra hakimiyyətlərində Apelyasiya Şuraları yaradılması və onun fəaliyyət istiqamətləri qeyd olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Fərmanına və nümunəvi Əsasnaməyə müvafiq olaraq Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının 08 fevral 2016-cı il tarixli 19 nömrəli Sərəncamı imzalanmışdır.

Həmin Sərəncama əsasən rayon Apelyasiya Şurasının 8 nəfər üzvü təyin edilmişdir. Lakin sözügedən nümunəvi Əsasnamənin 4.1-ci bəndində Apelyasiya Şurasının üzvlərinin sayı 7 nəfər göstərilmişdir. Sərəncamın nümunəvi Əsasnamənin tələblərinə uyğunlaşdırılması məqsədi ilə həmin sərəncamda qismən dəyişiklik edilməsi zərurəti yaranmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq

**QƏRARA ALIRAM:**

1. Hacıqabul rayon İcra Hakimiyyətində Apelyasiya Şurasının tərkibi aşağıdakı kimi təsdiq olunsun.

**APELYASİYA ŞURASININ SƏDRİ:**

- Fikrət Qasımov - İcra Hakimiyyəti Başçısının müavini, Sosial-İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri

## APELYASİYA ŞURASININ ÜZVLƏRİ:

| | |
|---|---|
| - Tariyel İsgəndərov | - İcra Hakimiyyəti Başçısı aparatının Hüquq şöbəsinin müdiri |
| - İbad Həşimov | - İcra Hakimiyyəti Başçısı Aparatının Ərazi İdarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| - İsabala Cəbrayılov | - İcra Hakimiyyəti Başçısı Aparatının Memarlıq və Tikinti Şöbəsinin müdiri – baş memar |
| - Əslan Səmədov | - İcra Hakimiyyəti Başçısı Aparatının Sosial-İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdirinin müavini |
| - Əsabir Məmmədov | - İcra Hakimiyyəti Başçısı Aparatının İctimai siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi |
| - Laləzar İbrahimova | - İcra Hakimiyyəti Başçısının Hacıqabul şəhər İƏD üzrə nümayəndəsi |

2. Apelyasiya Şurasına tapşırılsın ki, öz işini "Yerli İcra Hakimiyyəti orqanlarının Apelyasiya Şuraları haqqında nümunəvi Əsasnamə"nin tələblərinə uyğun qurmaqla fəaliyyətini təmin etsin və bu barədə İcra Hakimiyyəti Başçısına məlumat versin.

**Əhməd Muxtarov,**
**Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı**

Hacıqabul rayonu, 7 mart 2016-cı il
№ 30